Ədəbiyyat qəzeti
26 iyun / 2021

# "Bədii düşüncədə Qarabağ" kitabı işıq üzü görmüşdür




Tanınmış yazıçı-publisist, Əməkdar jurnalist, Qarabağ mövzusunda çoxsaylı publisistik əsərlər yazmış Zemfira Məhərrəmlinin "Bədii düşüncədə Qarabağ" adlı yeni kitabı bugünlərdə "Zərdabi" nəşrlər evində işıq üzü görmüşdür. Müəllif sayca 15-ci kitabını Azərbaycanın ərazi bütövlüyü uğrunda müqəddəs Vətən savaşında mərdliklə döyüşmüş qazilərimizin adına və şəhidlərimizin ruhuna dərin ehtiramla qələmə almışdır.

Z.Məhərrəmli oxucuların görüşünə bu dəfə yaradıcılığında imza atdığı bir ilklə gəlib. Ürək döyüntümüz olan Qarabağ müəllifin çağdaş ədəbiyyat kontekstində araşdırma kitabının əsas mövzusuna çevrilib. Ədəbiyyatımızın ünlü simalarının əsərlərində Qarabağ mövzusunun bədii inikasını publisistik qələmi ilə araşdırıb. Müqəddəs mövzuya köklənmiş çağdaş ədəbiyyatımız ilk dəfə olaraq bu kitabda toplu olaraq təhlilə cəlb edilmişdir. "Bədii düşüncədə Qarabağ" əsəri azğın erməni işğalçılarına və təcavüzkarı dəstəkləyənlərə qarşı 30 illik mücadiləmizin, savaşımızın başlanğıcından sonunadək olan bir dövrü əhatə edir.

Müəllifin yazıçı tənqidinin diqqətini çəkən, bu yöndə ədəbi mülahizələrinin məğzini təşkil edən, iztirab və kədərimiz, müdrik Sərkərdəmizin, igid əsgər və zabitlərimizin bizə yaşatdığı coşğu və sevinc dolu möhtəşəm Zəfərimizdən söz açan bədii mətnlər arasında söz sənətimizin sevilən, tanınmış nümayəndələrinin - R.Rza, X.R.Ulutürk, Anar, Elçin, F.Qoca, S.Rüstəmxanlı, N.Gün, S.Səxavət, İ.Fəhmi, E.Hüseynbəyli, Q.Ağsəs, R.Məcid, V.Bəhmənli, F.Məmmədli, O.Rza, Q.Nəcəfzadə, A.Şıxlı, E.Z.Qaraxanlı, E.İsgəndərzadə və başqalarının yazdığı əsərlər yer alıb.

Kitabın redaktoru şair-publisist Vaqif Bəhmənlidir, ön sözü filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan yazıb.